Bu gün (17.08.2019) bizim sədrin yanına Dağıstandan qonaq gəlmişdi.Bu 40-50 yaşında, üzü gülər, yanaqlarının bir tərəfi alma kimi çəhrayı, o biri tərəfi isə pambıq kimi ağappaq idi.O danışdı ki, iki il bundan əvvəl gəlmişdim sizin mətbəənizə. Kitabımı çap etmək istəyirdim. Lakin siz sponsor tapmağı məsləhət gördünüz.Gedəndə sədr öz vizit kartını verdi. Arxasına da mən mətbəənin direktorunun telefonunu yazdım.

O bayaqdan əlində tutdugu vizit kartı göstərib çantasına qoyub sözünə davam etdi. Bu vizit kartı mənə çox düşərli oldu. Belə ki, mən Moskva şəhərinə gedib Rəşid adlı bir iş adamı ilə görüşdüm. Sizin vizitkanızı, yazdığım kitabın əl yazısını göstərdim və xahiş etdi ki, mənim kitabımı çap etmək üçün sponsorluq etsin. Biz hər tərəfli söhbət edəndən sonra seyfindən bir bağlama amerika dolları çıxardaraq dedi:

-Al bunu, 10.000 dollardır. Get nə edirsən et,ancaq kitabını çap elətdir.Elə çap elətdir ki, ən yaxşı kitab olsun. Bir nüsxəsini də mənə göndər. Çox sevincək halda onun yanından çıxdım. Sevincimin həddi - hüdudu yox idi. Beynimdə kitabın necə çap edəcəyimi onun tərtibatı haqqında götür qoy edirdim. Səhərsi gün Dağıstana qa-

# Heç bir şübhə qalmır

## *hekayə*

yıtdım. Əl yazılarımı bir daha vərəqləyirdim ki, mətbəədə suallar meydana gəlməsin. 3 gün keçmişdi. Böyük qızıma elçi gəldi. Qıza əlimdə olan pulla toy edib köçürtdüm. Pullar da qurtardı. Kitab isə çap olunmadı. Mən yeni bir sponsor axtarmağa başladım. Bir sinifdə oxuduğum Məhəmməd yadıma düşdü. Axı o, Rusiyanın keçmiş paytaxtı Petroqradda böyük biznes sahibi idi. Mən Petroqrada getdim. Olanları ona danışdım. O da götürdü mənə bir bağlama 10.000 dollar pul verib dedi:

- Bax bunu verirəm sənə ki, öz kitabını çap etdirəsən. Mənə də bir nüsxəsini göndərərsən. Mən pulu götürüb doğma şəhərimə qayıtdım. Yenə də əl yazmasını gözdən keçirməyə kitabı mətbəəyə təhvil vermək üçün hazırlamağa başladım ki,biriki gündən sonra kiçik qızıma elçi gəldi. Ona da toy edib lazımı cehizini aldım. Bütün pulları xərclədim. Yeni sponsor axtarmalı oldum. Ailəvi dostumuz Nürəddin Rusiyanın Ekaterenburq şəhərində böyük biznesi var idi. Onun yanına getdim. Başıma gələnləri ona danışdım sizin vizit kartınızı ona göstərib və ondan kömək istədim.O da vızıt kartına diqqətlə baxıb dedi:

-Sən get bu kitabın mətbəədə çap etdirmək üçün lazım olan pulun miqdarın öyrən gəl, nə qədər lazımdırsa verərəm və kitabını çap etdirərsən.

Mən ordan çıxandan sevincimin həddi-hüdudu yox idi.İndi də gəlmişəm siz bu kitabın çapı üçün lazım olan vəsaiti sayıb mənə onun miqdarın deyərsiz. Yəqin bu dəfə mən aldığım pulla sizdə bu kitabı çap etdirərəm.

Bayaqdan çox diqqətlə Məriyyəm xanıma qulaq asan mətbəənin dirtektoru Şamil kişi dillənir:

Məryəm xanım! Mənə elə gəlir ki, əyər bizim vizit kartı sizin qızlarınıza uğur gətirib onlar ailə həyatı qurublarsa, indi biz sizin bu kitabınızı çap etsək, sizin də ərə getməyinizə heç bir şübhə qalmır.

***Şəddat* Cəfərov ,**
***yazıçı-publisist***